# Azərbaycanın qətiyyəti növbəti dəfə nəticə verdi

## Kreml öz kuklasını geri çağırdı

"Biz Qarabağdakı erməni icmasının nümayəndələri ilə praktiki təmaslara başlamağa hazırıq. Bu gün dövlət katibi Blinkenin qarşısında mən Ermənistandan olan həmkarıma bu barədə dedim. Lakin biz bunu o zaman edə bilərik ki, Rusiya vətəndaşı, cinayətkar oliqarx, Avropada çirkli pulların yuyulmasında əli olan şəxs - Vardanyan bizim ərazimizi tərk etsin".





Bu sözləri Prezident İlham Əliyev Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Cənubi Qafqazda təhlükəsizlik məsələləri ilə bağlı plenar iclasda demişdi.

Dövlətimizin başçısı qeyd etmişdi ki, Qarabağdakı erməni azlığın hüquqları və təhlükəsizliyi ilə bağlı müzakirələr aparılacaq və bunu etməyə hazırıq, amma erməni icmasının Qarabağda doğulmuş və bütün ömrü boyu orada yaşamış nümayəndələri ilə, Qarabağa Rusiyadan rəhbər mövqe tutmaq üçün ixrac edilmiş şəxslə deyil.

Prezident İlham Əliyevin Ruben Vardanyanla bağlı fikirləri qısa zamanda öz nəticəsini göstərdi. Belə ki, fevralın 23-də o, "dövlət naziri" "vəzifə"sindən çıxarıldı.

### Prezident İlham Əliyevin haqlı tələbi

Milli Məclisin deputatı Sahib Alıyev qəzetimizə açıqlamasında bildirib ki, Ruben Vardanyanın tutduğu "post"dan rədd edilməsi məhz Prezident İlham Əliyevin tələbidir. Deputat qeyd edib ki, dövlət başçısı bu tələbi ölkəmizdə, son dəfə isə beynəlxalq platformada - Münhen Təhlükəsizlik Konfransı çərçivəsində səsləndirib.

Onun sözlərinə görə, Azərbaycan Prezidentinin qətiyyətli tələbi olmasaydı, Vardanyan tutduğu "vəzifə"dən azad edilməyəcəkdi. "Baxmayaraq ki, o, Kremlə bağlı biridir, Avropadakı müəyyən çevrələrə, həmçinin korrupsiyaya uğramış siyasi dairələrə də çıxışı var. Qarabağa gələn kimi onun piarı ilə yalnız Rusiyanın deyil, Qərbin də bir sıra mediası məşğul olmağa başladı. Bu, təsadüfi deyildi. Bu, həmin Vardanyandı ki, Rusiyada qanunsuz yolla qazanılan, yüksəkvəzifəlilərin pullarını Avropada korrupsiyaya qurşanmış çevrələrlə əlaqəyə girərək yumaqla məşğul olub", - deyə S.Alıyev bildirib.

O vurğulayıb ki, bu səbəbdən Qərbdə ona qarşı anlaşıqlı yanaşma var. Deputatın fikrincə, o, təkcə "vəzifə"dən deyil, Qarabağdan rədd olmalıdır: "Əgər rədd olmasa, Azərbaycan Laçın yoluna nəzarət buraxılış məntəqəsi qurduqdan sonra onun tutulub Bakıya gətiriləcəyini istisna etmirəm".

### O, Qarabağa İrəvana transfer imkanlarını reallaşdırmaq üçün gəlmişdi

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu qeyd edib ki, Vardanyanın hər hansı rəsmi vəzifəsindən danışmağa əsas yoxdur, çünki bu, heç bir hüquqi əsaslara söykənmir. Deputat bildirib ki, Azərbaycanın ermənilər yaşayan ərazilərində cinayətkar, separatçı qruplaşma mövcuddur. Onlar hansısa bir idarəetmə sistemi formalaşdırıblar ki, bu da qeyri-leqal xarakter daşıyır.

E.Mirbəşiroğlu vurğulayıb ki, Ruben Vardanyanın ermənilər yaşayan Azərbaycan ərazilərinə gəlməsi oradakı ermənilərin vəziyyəti ilə bağlı deyil: "Hesab edirəm ki, Vardanyan bu "vəzifə"yə İrəvana siyasi transfer imkanlarını reallaşdırmaq üçün gəlmişdi. O, sadəcə olaraq özünün xilaskar və ya yardımçı erməni obrazını formalaşdırmaq istəyirdi. Qarabağ amili üzərindən Ermənistanda hakimiyyətə gəlmək təcrübəsi həmişə işləyib, Paşinyana qədər bu mexanizm mövcud olub. Vardanyanın da əsas məqsədi bu idi".

Deputatın fikrincə, Ruben Vardanyanın hansısa "post"dan getməsi ümumi planın aradan qaldırılması anlamına gəlmir. Onun sözlərinə görə, Ermənistanda mövcud olan Soros dəstəkli hakimiyyət bəlli dairələri qane etmir, buna görə də Paşinyan hakimiyyətinə qarşı da fərqli amillərdən istifadə olunacaq. Bunlardan ən real görünəni isə Vardanyandı.

Bundan sonra proseslərin əsasən Ermənistanda mövcud olan qruplaşmalar arasında gedəcəyini vurğulayan E.Mirbəşiroğlu qeyd edib ki, Paşinyan Qərbdən idarə olunur, onların təlimatları əsasında fəaliyyət göstərir. "Qarşısına qoyulan əsas vəzifə Ermənistanın Rusiyadan uzaqlaşdırılması və sözügedən istiqamətdə qarşıdurma, gərginlik yaradan elementlərin formalaşdırılmasıdır. Gələcəkdə buna qarşı hansı alternativlərin olacağını isə zaman göstərəcək", - deyə deputat bildirib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*